

# Rüstəm Ocaqov

**Rüstəm Ocaqov istedadlı gənclərimizdəndir. 1987-ci ildə Gürcüstan Respublikasında - Bolnisi rayonunun Kəpənəkçi kəndində ziyalı ailəsində anadan olub. Ali təhsilli iqtisadçıdır. Müxtəlif vəzifələrdə çalışıb. Maraqlı şeirlər müəllifidir. İlk kitabı çapa hazırlanır.**

## Bu gecə

Bu gecə yuxuma girdi bir ilan,
Nifrətlə, qəzəblə baxdı üzümə.
Asta addımlarla uzaqlaşan an,
Gözləri sataşdı birdən gözümə.

Nələr söyləyirdi mənə baxışlar,
Yoxsa yeni qurban axtarırdı o?
Məni zəhərləyib öldürmək üçün
Bəlkə, çoxdan imkan axtarırdı o?

Bu gecə yuxuma girmişdi ilan,
Sürünüb gəlirdi o mənə tərəf,
Gözləri intiqam, qisasla dolu,
Nədən o canımı seçmişdi hədəf?!

Donub yerimdəcə qaldım bir anlıq,
İlandan mərhəmət gözlədim sanki.
"İlahi, sən özün kömək ol mənə",-
Deyə mən cəsarət gözlədim sanki.

"Görəsən əcəlmi?" Bir an düşündüm,
Artıq bədənimə dolanmışdı o.
Nələr göstərəcək zaman, düşündüm,
Qəflət yuxusundan oyanmışdı o.

Sanki edamıma fərman verilmiş,
Gözümü yumaraq sonu gözlədim.
Əlacsız əlimi yanıma salıb,
Ölüm hökmü üçün onu gözlədim.

Dizlərim büküldü, yerə yıxıldım,
Ürəyim lap zəif vururdu mənim.
İlan qurbanının can verməsinə
Baxıb başım üstdə dururdu mənim.

Bu gecə yuxuma girmişdi ilan,
Məni bu dünyadan aparırdı o.
Yerinə yetməmiş arzularımdan,
Məni xoş xəyaldan qoparırdı o...

## Son rəqs

Səssizlik, qaranlıq, dəniz, bir də mən,
Sənsiz bir günüm də beləcə keçdi.
Səni itirdiyim o gündən bəri
Nə sabah açıldı, nə gecə keçdi.

Baxıram dənizə sanki dənizdə
Dalğalar da nəsə demək istəyir.
Çırparaq özünü sərt qayalara,
Sanki məndən yardım, kömək istəyir.

Yenə də yoluma davam edirəm,
Məni irəlidə nələr gözləyir?
Təbiət qoynunda bu qədər zaman
Görəsən, nə qədər sirlər gizləyir?

Səninlə gəzdiyim bu sahil boyu
İndi tənha, səssiz irəliləyirəm.
Tanrıdan tək səni istəyən zaman
Görəsən, mən çoxmu şey diləyirəm?

Birdən qulağıma həzin səs gəlir,
Həzin melodiya, piano səsi.
Bu notlar, bu hislər, bu xatirələr
Bizim mahnımızın bitməz nəfəsi.

Gözlərim yumuldu, əllərim qalxdı,
Özüm də bilmədən rəqsə başladım.
Sanki qollarımda sən vardın o an,
Mən həm rəqs elədim, həm alqışladım.

Bu imiş etdiyim son rəqsim məgər,
Gözlərim qaraldı, yerə yıxıldım.
Həkimin sözləri yadıma düşdü,
Dərin nəfəs alıb, bir az sıxıldım.

Söyləmişdi həkim, az qalıb, lap az,
Məgər xəstəliyim ölümcül imiş.
Deməli, həsrətlə keçən bu ömrüm,
Tez solub tökülən qızılgül imiş...



## Yardan ötrü

Ömür getdi, həyat itdi,
Vəfasız bir yardan ötrü.
Gözlərimdə yaş da bitdi,
Vəfasız bir yardan ötrü.
Sevgi bitdi, yox sədası,
Sənsən sevgimin mirası,
Yaşamağın nə mənası?
Vəfasız bir yardan ötrü.
Coşdu tufan, əsdi külək,
Həyat mənə gəldi kələk.
Parça-parça oldu ürək,
Vəfasız bir yardan ötrü.
Tanrım, nə idi günahım,
Göyə çıxdı naləm, ahım.
Qəlbim sındı, ey Allahım,
Vəfasız bir yardan ötrü.
Dağıldı bütün xəyalım.
Qalmayıbdı daha halım.
Bilmirəm ki, ölüm, qalım
Vəfasız bir yardan ötrü?!
Nələr keçdi, nələr oldu?
Zaman keçdi, zaman doldu.
Canım çiçək, gül tək soldu
Vəfasız bir yardan ötrü.
Dözdüm, dözdüm aram-aram,
Xoş günləri etdin haram.
Təzələndi qəlbdə yaram.
Vəfasız bir yardan ötrü...

## Nakam gözlər

Əllərim yenə də qələm istəyir,
Dərdini kağızla paylaşsın deyə.
Qəlbim daha güclü döyünür indi,
Sənin yoxluğunda çalışsın deyə.
Heç də tək deyiləm tənha olsam da,
Ətrafım insanla doludur indi.
Hər kəsin üzündə bir təbəssüm var,
Mənim yolum kədər yoludur indi.
Yazdıqca sətirlər bitmək bilməyir,
Qələmmi dərdlidi, ürəkmi dolu?
Gözlərim getdiyin cığırda qalıb,
Haraya uzanır tənhalıq yolu?
Saat da zamana üsyan eləyir,
Təsəllim yağışmı, musiqimizmi?
Dünyada bu qədər sevən var ikən,
Əzab çəkməliyik tək ikimizmi?
Yaşamaq xətrinə keçir bu ömrüm,
Ürək də köksümdə vurmaq istəmir.
Bədənim ruhumu saxlamır artıq,
O da bədənimi yormaq istəmir.
Gözüm o qaranlıq tunelə sarı
Baxıb sonunda bir işıq axtarır.
Zülmət cığırların üstündə mənim
Qəlbimi işığın həsrəti yarır.
Nə yaşaya billəm, nə də ki ölə,
Qorxuram torpaq da qəbul etməsin.
Gözümü yumarkən son nəfəsimdə,
Nakam gözlərimi kəfən örtməsin.

## İki yarın qovuşması

İlahi, necə də gözəldi həyat,
Məni sevdiyimə qovuşdurmusan.
Sanki əllərini köksümə qoyub,
Çırpınan ürəyi ovuşdurmusan.

Ah, necə xoşbəxtəm axır ki, mən də,
Yarım məni sevir, mən də yarımı.
Sanki sonsuz bir güc yaranıb məndə,
Kimsəyə verməräm ixtiyarımı.

Artıq kədər dalda, gözəldi həyat,
Daha əvvəlki tək tənha deyiləm.
Yox olsa bu dünya, aləm, kainat,
Mümkün deyil sınam, ya da əyiləm.

O göy gurultusu, ildırım səsi,
Mənimçün adi bir hala çevrilib.
Həyatın ən ağır, acı kəlməsi,
Yediyim ən şirin bala çevrilib.

Artıq söz vermişəm ağlamayacam,
Axsa da axacaq sevinc yaşları.
Qəlbimi qüssədən dağlamayacam,
Qopubdu içimdən həsrət daşları.

Duyuram cahanı, bu təbiəti,
Çiçəyin qoxusun indi alıram.
Bir vaxt itirdiyim bu təravəti,
Xoş bir gülüş ilə qarşılayıram.